**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin**

**2025-ci il üzrə fəaliyyətinə dair**

# HESABAT

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə yaradılmış Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi (bundan sonra — Mərkəz) 2025-ci ildə də Nizamnaməsinə müvafiq olaraq normativ hüquqi aktların keyfiyyətinin artırılması, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizanın aparılması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində fəaliyyətini uğurla davam etdirmişdir.

*Mərkəzin fəaliyyətinin təşkili üzrə*

2025-ci ildə Mərkəzin fəaliyyətinin səmərəli təşkili məqsədilə bir sıra tədbirlər görülmüş, o cümlədən yaranmış vakansiyalar üzrə kadrların komplektləşdirilməsi işi aparılmışdır. Belə ki, hesabat dövründə Mərkəzin altı əməkdaşı vəzifəsindən azad edilmişdir. Həmin əməkdaşlardan dördü Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında məsul vəzifələrə təyin olunması ilə əlaqədar, biri xaricdə təhsilinin davam etdirilməsi, daha bir əməkdaş isə də öz xahişi ilə tutduğu vəzifədən azad edilmişdir. Qeyd olunan əməkdaşların yerinə beş yeni əməkdaşın işə qəbulu təmin edilmiş, bir yer isə vakant qalmışdır.

Həmçinin, 2025-ci il ərzində Mərkəzin altı əməkdaşı vəzifədə irəli çəkilmiş, onlardan üç nəfər baş mütəxəssis vəzifəsindən şöbə müdiri vəzifəsinə, digər üç nəfər isə aparıcı mütəxəssis vəzifəsindən baş mütəxəssis vəzifəsinə təyin olunmuşdur.

Hesabat dövründə Mərkəzin fəaliyyətinin təşkili məqsədilə “Dövlət satınalmaları haqqında” Qanuna uyğun olaraq, Mərkəz tərəfindən müxtəlif satınalma metodlarından istifadə edilməklə 19 satınalma həyata keçirilmişdir.

*Hüquqi ekspertiza və hüquqi aktların hazırlanması sahəsində görülmüş işlər üzrə*

Hesabat dövrü ərzində Mərkəzin işçi heyəti Nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq normativ hüquqi aktların layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında iştirak etmişdir. Aparılmış hüquqi ekspertiza çərçivəsində Mərkəzə təqdim edilmiş müxtəlif hüquqi aktların layihələrinin “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələblərinə uyğunlaşdırılması, qüvvədə olan qanunvericilik aktları ilə ziddiyyətlərin aradan

qaldırılması, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi məqsədilə rəylərin verilməsi təmin olunmuşdur.

Belə ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Dövlət Turizm Agentliyinin müraciəti əsasında Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yaradılan süni torpaq sahələrində kazino oyunlarının təşkili və keçirilməsinin hüquqi tənzimlənməsini təmin etmək məqsədilə hazırlanmış "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi və həmin qanunun tətbiqindən irəli gələrək bir sıra normativ hüquqi aktların layihələrinin hüquqi ekspertizası həyata keçirilmiş, həmçinin qeyd edilən normativ hüquqi aktların uyğunluğunun təmin edilməsi məqsədilə bir sıra normativ hüquqi akt layihələri hazırlanaraq sifarişçiyə təqdim edilmişdir. Sözügedən qanun layihəsi cari ilin 8 iyul tarixində qəbul edilmişdir.[1]

Kazino oyunlarının təşkili və keçirilməsinin hüquqi tənzimlənməsini təmin etmək məqsədilə həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilməsi nəzərdə tutulan "Kazino oyunlarının təşkili və keçirilməsi üçün xüsusi ayrılan yerlərə dair tələblər", "Kazino oyunlarının təşkili və keçirilməsi Qaydası", "Kazino oyunlarının təşkili üçün lisenziya verilməsinin şərtləri (tələbləri)" və "Kazino oyunlarının operatoruna dair tələblər"in hüquqi ekspertizasının həyata keçirilməsi üzrə işlərə başlanılmışdır.

Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin sifarişi əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Vahid Elektron Arxiv Məlumat Sisteminin (VEAMS) Əsasnaməsi"nin təsdiq edilməsi ilə bağlı qərar layihəsi hazırlanmış və adıçəkilən Əsasnamənin layihəsi hüquqi ekspertizadan keçirilərək sifarişçiyə təqdim olunmuşdur.

Eyni zamanda "Azərenerji" ASC ilə bağlanmış müqavilə çərçivəsində elektroenergetika subyektlərinin fəaliyyətinin tənzimlənməsi məqsədilə "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi, habelə həmin Qanunun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında fərman layihəsi hazırlanmışdır. Sözügedən qanun layihəsi Milli

[1] https://e-qanun.az/framework/60273

Məclis tərəfindən cari ilin 21 iyun tarixində[2] qəbul edilmiş, fərman layihəsi isə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 7 iyul tarixində[3] imzalanmışdır.

Həmçinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi ilə Mərkəz tərəfindən "Azərbaycan Respublikasının 202_-2030-cu illər üçün Ailə Konsepsiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncam layihəsi və "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərman layihəsi hazırlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 noyabr tarixli 528 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin tələblərinə uyğunlaşdırılmış və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə müvafiq normativ hüquqi aktlarla verilmiş aktual səlahiyyətlərin Əsasnamədə sistemli şəkildə təsbit edilməsi təmin olunmuşdur.

Eyni zamanda, "Ailə siyasəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərman layihəsi, həmin fərmanla təsdiq edilməsi nəzərdə tutulan "Ailə İnkişafı və Layihələrin Əlaqələndirmə Mərkəzi (AİLƏM)" publik hüquqi şəxsin nizamnaməsinin layihəsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi haqqında" fərman layihəsi hazırlanaraq sifarişçiyə təqdim edilmişdir.

Hesabat dövründə Respublika Gigiyena və Epidemiologiya Mərkəzi ilə bağlanmış müqavilə çərçivəsində səhiyyə sahəsində idarəetmə, tənzimləmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, səhiyyə sisteminə daxil olan bir sıra qurumların fəaliyyətinin optimallaşdırılması, şəffaflığın artırılması, inzibati xərclərin azaldılması, büdcə vəsaitlərindən daha səmərəli istifadə olunması və əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə görülən işlər davam etdirilmişdir. Belə ki, bağlanmış müqavilə çərçivəsində hazırda Mərkəz tərəfindən səhiyyə sisteminə daxil olan bəzi publik hüquqi şəxslərin nizamnaməsinin və onları təsdiq edəcək normativ hüquqi aktların layihələrinin, habelə bununla əlaqədar digər zəruri normativ hüquqi aktların layihələrinin hazırlanması üzrə işlər davam etdirilməkdədir.

Həmçinin Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu ilə bağlanmış müqavilə çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun yenidən təşkili və

[2] https://e-qanun.az/framework/60118
[3] https://e-qanun.az/framework/60119

Nizamnaməsinin təsdiq edilməsi haqqında" qərar layihəsi və həmin qərarın qəbul edilməsi ilə əlaqədar digər zəruri normativ hüquqi akt layihələri hazırlanaraq sifarişçiyə təqdim edilmişdir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının müraciəti əsasında "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi və bundan irəli gələn digər sənədlərin ilkin layihələri, habelə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yeni Nizamnaməsinin layihəsi hazırlanaraq sifarişçiyə təqdim edilmişdir. Qeyd edilən layihələr aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması üçün sifarişçi tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur. Layihələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırıldıqdan sonra təkmilləşdirilmək məqsədilə yenidən Mərkəzə təqdim edilməsi nəzərdə tutulur.

Qeyd edilənlərlə yanaşı Mərkəz tərəfindən Azərbaycan Avtomobil Federasiyasının müraciəti əsasında raritet (nadir) avtomobillərin idxalı prosedurunun sadələşdirilməsi məqsədilə normativ hüquqi aktların layihələrinin, Azərbaycan Dövlət Reklam Agentliyi ilə bağlanmış müqaviləyə əsasən reklam fəaliyyətinə nəzarətin təkmilləşdirilməsi məqsədilə normativ hüquqi akt layihələrinin və Azərbaycan Respublikasının Hesablama Palatasının sifarişi əsasında "Hesablama Palatası haqqında" Qanuna dəyişiklik edilməsi barədə" qanun layihəsinin hüquqi ekspertizası həyata keçirilmişdir.

Hesabat dövründə həmçinin Mərkəz tərəfindən hüquqi şəxslərə münasibətdə inzibati cərimə növündə inzibati tənbehin tətbiqinin sadələşdirilməsi ilə bağlı Dövlət Gömrük Komitəsinin müraciəti əsasında "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi, Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu ilə bağlanmış müqavilə çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında" fərman layihəsi hazırlanaraq sifarişçiyə təqdim edilmişdir.

Ümumilikdə, hesabat dövrü ərzində 5 qanun layihəsinin (o cümlədən 14 qanuna dəyişiklik nəzərdə tutan 2 qanun layihəsi), 6 fərman layihəsinin (o cümlədən 19 fərmana dəyişiklik nəzərdə tutan 2 fərman layihəsi), 1 Azərbaycan Respublikası Prezidentinin sərəncam layihəsinin və Nazirlər Kabinetinin 14 qərar layihəsinin hüquqi ekspertizası həyata keçirilmişdir.




Həmçinin, hesabat dövründə 5 qanun layihəsi (o cümlədən 6 qanuna dəyişiklik nəzərdə tutan 1 qanun layihəsi), Azərbaycan Respublikası Prezidentinin 10 fərman layihəsi (o cümlədən 5 fərmana və 2 sərəncama dəyişiklik nəzərdə tutan 3 fərman layihəsi), Azərbaycan Respublikası Prezidentinin 1 sərəncam layihəsi, Nazirlər Kabinetinin 3 qərar layihəsi (o cümlədən 6 qərara dəyişikliyi nəzərdə tutan 1 qərar layihəsi) və 1 mərkəzi icra hakimiyyəti orqanının qərar layihəsi hazırlanmışdır.




*<u>Qanunvericilik təşəbbüsü qaydasında görülmüş işlər üzrə</u>*

Mərkəz tərəfindən hazırlanan "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyada verilməsini nəzərdə tutan "Beynəlxalq

müqavilələr haqqında" qanun layihəsi ilə bağlı işlər növbəti mərhələ üzrə davam etdirilir. Hazırda layihə üzrə aidiyyəti qurumların rəy təqdim etməsi gözlənilir.

Həmçinin qeyd olunmalıdır ki, Mərkəzin təşəbbüsü ilə 11.12.2023-cü il tarixində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində təşkil olunan, Mərkəzin rəhbərlik etdiyi "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi" işçi qrupu fəaliyyətini cari ildə aktiv şəkildə davam etdirərək bir sıra tədbirlər görmüşdür. Belə ki, 17.01.2025-ci il tarixdə işçi qrupun 2025-ci il üzrə fəaliyyət planı təsdiq edilmiş, həmin plana uyğun olaraq, işçi qrupun fəaliyyəti çərçivəsində hazırlanmış Mülki Məcəllənin 1-ci *(Mülki hüquq sahəsində qanunvericilik),* 2-ci *(Mülki hüquq və vəzifələr, onların müdafiəsi)* və yeni 2-1-ci *(Şəxsiyyət hüquqları)* fəsillərinə dair konsepsiya sənədi əsasında "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi və digər əlaqəli sənədlər tamamlanaraq aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması üçün Komissiyanın rəbərliyinə təqdim edilmişdir.

Eyni zamanda, Mərkəz tərəfindən maraqlı tərəflər (Mülki Məcəllənin müvafiq maddələrini tətbiq edən və ya onların tətbiqinə məruz qalan şəxslər) və işçi qrupun üzvlərinin iştirakı ilə bir sıra görüşlər keçirilmiş, onların rəy və təklifləri də nəzərə alınmaqla, Mülki Məcəllənin 4-cü fəslinin *(Hüquqi şəxslər)* təkmilləşdirilməsi üzrə müzakirələr təşkil edilmişdir. Belə ki, Mərkəz tərəfindən aidiyyəti dövlət orqanları (qurumları), qeyri-hökumət təşkilatları və sahibkarlardan ibarət 40-dan çox maraqlı tərəfə müraciət edilərək, həmin subyektlərin Mülki Məcəllənin 4-cü fəsli üzrə təcrübədə qarşılaşdığı problemlər, bu problemlərin aradan qaldırılması, habelə Mülki Məcəllənin 4-cü fəslinin müddəalarınn təkmilləşdirilməsinə dair toplanmış yazılı təkliflər təhlil olunmuş və bununla əlaqədar konsepsiya sənədinin müvafiq istiqamətləri müəyyən edilmişdir. Hazırda Mülki Məcəllənin 4-cü fəslinə dair konsepsiya sənədinin hazırlanması işi davam etdirilir.

*Mərkəz tərəfindən hazırlanmış hüquqi arayış və rəylər*

Hesabat dövründə dövlət orqanlarının (qurumlarının) müraciəti əsasında hüququn müxtəlif sahələri üzrə hüquqi tədqiqatların aparılması və rəylərin verilməsi sahəsində də işlərin görülməsi davam etdirilmişdir. Belə ki, Mərkəz tərəfindən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin aşağıdakı müraciətləri ilə əlaqədar rəylərin verilməsi təmin edilmişdir:

1) "İnflyasiya nəticəsində pulun dəyərsizləşməsinin zərər anlayışı ilə əhatə olunub olunmamasına münasibətdə Mülki Məcəllənin 21.2-ci maddəsinin şərh edilməsinə dair";

2) Notariusun icra qeydinin mübahisələndirilməsi müddətinə münasibətdə "Notariat haqqında" Qanunun 41-ci və 76-cı maddələrinin Mülki Prosessual Məcəllənin 128.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair";

3) "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1.1.1-ci maddəsində "cinayət törədilərkən istifadə etdiyi" müddəasının həmin Məcəllənin 27, 28, 29-cu

maddələri ilə, Cinayət Məcəlləsinin 99-3.2-ci maddəsinin ikinci cümləsində “cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı” anlayışının Cəzaların İcrası Məcəlləsinin 187-ci maddəsi ilə əlaqəli şəkildə, habelə Cinayət Məcəlləsinin 99-2-ci maddəsində “cinayət törətmiş şəxsə məxsus olan digər əmlak” anlayışının şərh edilməsinə dair”;

4) “Birinci instansiya məhkəməsində baxılmış işin yenidən baxılması üçün həmin məhkəməyə qaytarılmasının mümkünlüyünə münasibətdə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 372-ci və 384-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair”;

5) “Azərbaycan Respublikasının Konstitusiyasının 13 və 29-cu maddələri, habelə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 373, 377.1 və 379-cu maddələri baxımından "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 17.1.4-cü maddəsinin müqayisəli şəkildə şərh edilməsinə dair”;

6) “Alimentin indeksasiyası qaydalarına münasibətdə Azərbaycan Respublikası Ailə Məcəlləsinin 110-cu maddəsinin “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 13-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair”;

7) “Azərbaycan Respublikası Ailə Məcəlləsinin 32.2.2-ci maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 93-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair”;

8) “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 4.1-ci maddəsində müəyyən edilmiş “qanunla qorunan maraq'' anlayışının şərh edilməsinə dair”;

9) “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 329, 339.1, 340.2 və 661-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair”;

10) “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377.1-ci maddəsinin şərh edilməsinə dair”;

11) “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi və Cinayət-Prosessual Məcəlləsinin 218.3-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair”;

12) “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.2.23-cü, 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.2.24-cü və 2022-ci il 9 mart tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş “Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası”nın 3.2.25-ci yarımbəndlərinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması ilə əlaqədar”;

13) Muxtarzadə Yeganə Mehman qızının Ali Məhkəmənin Mülki Kollegiyasının qərarından verdiyi konstitusiya şikayəti ilə əlaqədar Ailə Məcəlləsinin 47.1-ci maddəsinə əsasən doğum haqqında şəhadətnamədə ata barədə qeydin uşağın valideyni qismində

yazılmış şəxs olaraq ananın mübahisələndirmək hüququnun olub-olmaması məsələsinə dair;

14) Azərbaycan Respublikası Mülki Məcəlləsinin 402-ci maddəsinin və "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinin 4-cü hissəsinin əlaqəli şəkildə şərh edilməsinə dair;

15) Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23.1.15-3-cü və Mülki Prosessual Məcəllənin 355-5.1-ci maddələrində nəzərdə tutulan "hüquqi şəxslərin icra orqanının rəhbəri" anlayışının Azərbaycan Respublikası Konstitusiyasının 25-ci və 73-cü, Vergi Məcəlləsinin 13.1-ci, 13.2.2-ci, 13.2.39-cu, 13.2.39.2-ci, 33.1-ci, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunun 2.0.7-ci, 2.0.8-ci və 16.9-cu maddələri, habelə Miqrasiya Məcəlləsinin 17-ci maddəsi kontekstində şərh edilməsinə dair;

16) "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq hərbi qulluqçulara, xüsusi rütbəli şəxslərə və dövlət qulluqçularına pensiya təyin edilərkən onların xidmət müddətinin hesablanması qaydasının "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 22.7-1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair;

17) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 162-1-ci maddəsinin Qeyd hissəsinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair;

18) "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 77-ci, 102-ci maddələrinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 98 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növləri"nin 1.1-ci bəndinin, 3-cü, 5-ci və 6-cı hissələrinin əlaqəli şəkildə şərh edilməsinə dair;

19) Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən cəza təyin edilərkən cəzanın aşağı həddi ilə bağlı törədilmiş əmələ görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, yoxsa ərazisində cinayət törədilmiş xarici dövlətin cinayət qanunvericiliyinin tətbiq edilməli olması ilə bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.5-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının preambulasında öz əksini tapan qanunun aliliyinin əsas elementlərindən biri kimi hüquqi müəyyənlik prinsipi, Konstitusiyanın 80-ci maddəsi və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair;

20) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.1-1, 206-1.2, 206-1.3, 263.1 və 263.1-1-ci maddələrinin sanksiyalarında nəzərdə tutulmuş əlavə cəzaların hansı əsas cəzalara əlavə olaraq təyin edilməsi ilə bağlı həmin normaların Azərbaycan

Respublikası Konstitusiyasının 80-ci maddəsi, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 2.2, 5.1 və 43-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair;

21) "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının 1992-ci il 23 sentyabr tarixli Qanununun 67-ci maddəsinin üçüncü hissəsinin "ğ" bəndinin "Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar və vergi orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 noyabr tarixli 631 nömrəli Qərarının 1-ci hissəsinin on dördüncü abzasının müddəaları ilə əlaqəli şəkildə şərh edilməsinə dair;

22) Vətəndaş Vəliyev Orxan Vidadi oğlunun Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 11 aprel 2025-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılması ilə bağlı şikayətinə dair.

Qeyd edilənlərlə yanaşı, Azərbaycan Respublikasının Ali Məhkəməsinin sifarişi əsasında "Şəxsiyyət hüquqlarının müdafiəsi və mənəvi zərərin kompensasiyasının əsasları haqqında" və "Podrat müqaviləsindən irəli gələn mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun qərar layihələri ilə bağlı rəy və təkliflər hazırlanaraq sifarişçiyə təqdim edilmişdir.

"Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın 3.1.1-ci yarımbəndində təsbit olunan investisiya müqaviləsinin "istehsalçı" tərəfi qismində bir neçə şəxsin iştirak etməsinin mümkünlüyü barədə rəy hazırlanaraq Azərbaycan Respublikasının Energetika Nazirliyinə təqdim edilmişdir.

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin müraciətinə əsasən tikinti obyektinə əlavə enerjinin (gücün) alınması ilə bağlı rəy hazırlanaraq sifarişçiyə təqdim edilmişdir.

Bundan başqa, Azərbaycan Dövlət Turizm Agentliyinin müraciətinə əsasən çimərliklərin təşkili və idarəedilməsi mexanizminə dair hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflərə dair arayışın hazırlanmasına başlanılmışdır. Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun müraciətinə əsasən Hüquqi və fiziki şəxslərin konsiqnasiya yolu ilə ixrac etdikləri malların (işlərin, xidmətlərin) müqabilində vəsaitlərin onların bəyan olunduğu gündən 180 (yüz səksən) gün ərzində Azərbaycan Respublikasındakı müvəkkil bankda olan hesablarına köçürülməsini təmin etmədikləri halda nəzərdə tutulan məsuliyyətin Ələt Azad İqtisadi Zonasına münasibətdə tətbiqinin istisnası ilə bağlı rəy hazırlanaraq sifarişçiyə təqdim edilmişdir.

## HÜQUQİ ARAYIŞ VƏ RƏYLƏR

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 22 müraciəti üzrə müvafiq rəylər hazırlanaraq təqdim edilmişdir

Müxtəlif dövlət orqanlarından (qurumlarından) Mərkəzə daxil olmuş müraciətlər əsasında rəylərin verilməsi təmin edilmişdir

Müxtəlif normativ hüquqi akt layihələri və hüquqi məsələlərlə bağlı xarici təcrübəyə dair müvafiq hüquqi arayışların hazırlanması təmin edilmişdir

*Normayaratma və hüquq normalarının tətbiqi sahəsindəki təlimlər üzrə*

Hesabat dövrü ərzində dövlət orqanları (qurumları) üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində təlimlərin səmərəliliyinin artırılması istiqamətində işlər aparılmışdır.

Mərkəz tərəfindən 2025-ci ildə Mərkəzin Nizamnaməsinin 3.1.10-cu və 3.1.11-ci yarımbəndlərinə müvafiq olaraq dövlət orqanlarının (qurumlarının) hüquq sahəsində fəaliyyət göstərən əməkdaşlarının hüquqi biliklərinin və təcrübələrinin artırılması üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində 4 təlim keçirilmişdir. Təlimlərdə mərkəzi icra hakimiyyəti, yerli icra hakimiyyəti və digər dövlət orqanlarından (qurumlarından) ümumilikdə 62 nümayəndə iştirak etmişdir.

Beş gün davam edən hər təlimdə Mərkəz və onun funksiyaları, hüquqi aktların növləri və qəbul edilmə xüsusiyyətləri, normativ hüquqi aktların kolliziyası, qanunvericilikdə boşluqlar və onların aradan qaldırılması üsulları, normayaratma prosesi, normayaratma texnikası və layihənin hazırlanmasına dair ümumi tələblər, normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin hazırlanması, hüquqi akt layihəsinin təqdim edilməsi, baxılması, qəbul edilməsi, rəsmi dərc edilməsi və qüvvəyə minməsi, normativ hüquqi akt layihəsinin məcburi hüquqi ekspertizasının, o cümlədən sui-istifadəyə məruz qalmasına dair ekspertizasının keçirilməsi qaydaları və nəticələrinin rəsmiləşdirilməsi və digər məsələlər barədə iştirakçılara ətraflı məlumat verilmişdir.

Həmçinin, təlimin son günü sözügedən mövzularla əlaqədar iştirakçılarla fikir mübadiləsi aparılmış, normativ hüquqi aktların layihəsinin hazırlanması, məcburi hüquqi ekspertizasının aparılması, nöqsan və çatışmazlıqların aşkar edilməsi üzrə praktiki məşğələ aparılmışdır. İnteraktiv keçən təlimlərdə müxtəlif komanda işləri icra olunmuş, habelə keçirilmiş mövzularla əlaqədar “Nə? Harada? Nə zaman?” formatında intellektual yarışlar təşkil edilmiş, suallar üzərində müzakirələr aparılmaqla mövzuların mənimsənilməsi prosesinə şərait yaradılmışdır. Təlimi uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim edilmişdir.

Eyni zamanda qeyd edilməlidir ki, dövlət orqanlarının (qurumlarının) əməkdaşları üçün təlimlərin keçirilməsi işinin təşkili məqsədilə Mərkəz tərəfindən Hüquq və İnsan Haqları İnstitutuna tapşırıqlar verilmiş, İnstitut tərəfindən isə öz növbəsində bu istiqamətdə mərkəzi icra hakimiyyəti orqanlarının 133 əməkdaşı, məhkəmə və prokurorluq orqanlarının 6 əməkdaşı, yerli icra hakimiyyəti orqanlarının 62 əməkdaşı, bələdiyyələrin 210 əməkdaşı, habelə müxtəlif institutlar və akademiyaların 57 əməkdaşı üçün təlimlərin keçirilməsi təmin edilmişdir.

*<u>Normativ hüquqi aktların keyfiyyətinin artırılması məqsədilə hazırlanan materiallar</u>*

Normayaratma fəaliyyətində vahid yanaşmanın təmin edilməsi və normativ hüquqi aktların keyfiyyətinin artırılması məqsədilə Mərkəz tərəfindən hazırlanmış “Normayaratma texnikasının Qaydaları” cari ildə təsdiq edilmişdir. Bundan sonra adıçəkilən qaydalar, həmçinin Müşahidə Şurasının müvafiq qərarları ilə ötən hesabat dövrlərində təsdiq edilmiş “Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair Təlimat” və “Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi Qaydaları” bir topluda birləşdirilərək “Normayaratma” adlı kitab nəşr edilmişdir.

“Konstitusiya və Suverenlik İli” çərçivəsində hazırlanmış həmin nəşrə daxil olan qaydalar müvafiq sahədə formalaşmış milli təcrübəni, eləcə də beynəlxalq yanaşmaları əks etdirir və normayaratma prosesində iştirak edən subyektlər üçün praktik və elmi-metodoloji mənbə qismində çıxış edir.

*<u>Elmi-praktiki kommentariyaların hazırlanması üzrə</u>*

Mərkəzin Nizamnaməsinə uyğun olaraq hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanması istiqamətində işlər uğurla davam etdirilmişdir. Belə ki, cari ildə Mərkəz tərəfindən “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun Kommentariyası hazırlanaraq nəşr edilmişdir. Sözügedən Kommentariyanın hazırlanması zamanı Almaniya, Fransa, Rusiya Federasiyası, Gürcüstan və digər ölkələrin müvafiq qanunvericiliyi və hüquq doktrinası araşdırılmış, yerli və xarici akademik ədəbiyyatdan, məqalələrdən və məhkəmə təcrübəsi materiallarından istifadə edilmişdir.

*Hüquqi tərcümə işinin təşkili üzrə*

Hesabat dövrü ərzində Mərkəz tərəfindən peşəkar hüquqi tərcümə işinin səmərəli təşkil edilməsi də diqqətdə saxlanılmışdır. Belə ki, hər il Mərkəz tərəfindən Azərbaycan Respublikasının qoşulduğu, lakin Azərbaycan dilində tərcüməsi olmayan beynəlxalq müqavilələrin tərcüməsi həyata keçirilir. Müvafiq tərcümələr tamamlandıqdan sonra onların rəsmi mətnə uyğunluğunun (autentikliyinin) təsdiq edilməsi üçün Xarici İşlər Nazirliyinə müraciət edilir və daha sonra Ədliyyə Nazirliyi vasitəsilə Hüquqi Aktların Dövlət Reyestrində yerləşdirilməsi təmin olunur. Bununla əlaqədar hesabat dövründə Mərkəz tərəfindən BMT-nin "Mülki və Siyasi Hüquqlar Haqqında" Beynəlxalq Paktı və "Avtomobil nəqliyyatı ilə yüklərin beynəlxalq daşınması müqaviləsi haqqında" Cenevrə Konvensiyası Azərbaycan dilinə tərcümə olunub.

Bundan başqa, Milli Məclisin müraciətinə əsasən Azərbaycan Respublikasının 17 may 1996-cı il tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi" ingilis dilinə tərcümə edilmişdir.

Ümumilikdə hesabat dövründə cəmi 91 vərəq olmaqla 5 sənədin tərcüməsi yekunlaşmışdır.

*Hüquqi maarifləndirmə işinin aparılması üzrə*

Hesabat dövründə müxtəlif istiqamətlər üzrə qəbul edilmiş ictimai əhəmiyyətli məsələlər üzrə qəbul edilmiş bir sıra normativ hüquqi aktlara dair izahedici qeydlərin hazırlanaraq Mərkəzin rəsmi internet saytının müvafiq bölməsində yerləşdirilməsi təmin edilmişdir.

Müxtəlif internet resurslarında normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində tələbə və yeni məzun olmuş hüquqşünasların könüllülük proqramına cəlb edilməsi barədə yerləşdirilmiş elanla əlaqədar daxil olmuş müraciətlər araşdırılmış və könüllülük proqramında iştirak üçün ən uyğun 3 namizəd (Bakı Dövlət Universitetinin və ADA Universitetinin tələbələri) seçilmişdir. Həmin tələbələrdən ikisi Mərkəzin İcraçı direktorunun müvafiq əmrinə əsasən Mərkəzdə normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində cari ilin fevral-mart, bir tələbə isə oktyabr-dekabr aylarında könüllü fəaliyyət keçmək üçün Mərkəzin ayrı-ayrı şöbələrinə yönləndirilmişdirlər. Bu müddət ərzində onlar Mərkəzin fəaliyyəti, hüquqi akt layihələrinin hazırlanması, normayaratma texnikası, hüquqi ekspertizanın aparılması prosesi ilə tanış olmuş, müxtəlif məsələlərlə bağlı beynəlxalq təcrübənin araşdırılması, təhlili, habelə bir sıra sənədlərin hazırlanması işinə cəlb edilmişlər. Təcrübə proqramını uğurla başa vuran tələbələrə Mərkəzin İcraçı direktoru tərəfindən sertifikat təqdim edilmişdir.

Cari ilin 15 mart və 6 aprel tarixlərində Mərkəzinin Xüsusi hüququn ekspertizası şöbəsinin baş mütəxəssisi tərəfindən "Avropa Hüquqşünas Tələbələr Assosiasiyası – Bakı" İctimai Birliyi (ELSA Azərbaycan) tərəfindən həyata keçirilən "Hüquqi yazı" layihəsi

çərçivəsində "Qanunvericilik aktlarının yazılması" mövzusunda 40-dan çox tələbə və gənc hüquqşünasın iştirak etdiyi təlim keçirilmişdir.

Hesabat dövründə Mərkəzin fəaliyyəti barədə ictimaiyyətin məlumalandırılması məqsədilə Mərkəzin rəsmi internet səhifəsində və sosial media hesablarında məlumatların paylaşılması təmin edilmişdir. Nəticədə, cari ilin əvvəlindən Mərkəzin rəsmi internet saytına təxminən 14 000-dən artıq giriş olmuşdur. Eyni zamanda, Mərkəzin rəsmi internet saytındakı paylaşımlara 27 000-dən, müvafiq sosial şəbəkələrdəki (Facebook, İnstagram, Linkedin və X) paylaşımlara isə 237 000-dən çox baxış qeydə alınmışdır.

*Mərkəzin əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi üzrə*

Əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi məsələsinə də Mərkəz tərəfindən mütəmadi olaraq diqqət yetirilir.

Mərkəz cari ilin 15 yanvar tarixində 2011-ci ildə yaradılan və Avropa ölkələrində hüququn inkişafını təmin etməyi və stimullaşdırmağı hədəfləyən qeyri-hökumət təşkilatı olan Avropa Hüquq İnstitutunun institusional üzvü olmuşdur. Qeyd edilməlidir ki, İnstitutun əsas məqsədləri hüquq siyasətinin və təcrübəsinin inkişafını qiymətləndirmək və stimullaşdırmaq, beynəlxalq sənədlər və ya model qaydaların hazırlanmasında iştirak etmək, Avropa hüquq sistemləri üçün ümumi olan prinsipləri və qaydaları hazırlamaq və ya təkmilləşdirmək üzrə tədqiqatlar aparmaq, habelə hüququn inkişafına maraq göstərən hüququn müxtəlif sahələrindən olan mütəxəssislərin, o cümlədən akademiklərin, hakimlərin və digər hüquqşünasların müzakirə və əməkdaşlıq mühitini yaratmaq üçün forumlar təşkil etməkdir.

Avropa Hüquq İnstitutunun 160 institusional üzvü arasında Avropa Parlamenti, Avropa Ədalət Məhkəməsi, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası (UNCITRAL), Xüsusi Hüququn Unifikasiyası üzrə Beynəlxalq İnstitut (UNIDROIT), bir sıra xarici ölkələrin konstitusiya və ali məhkəmələri, nüfuzlu ali təhsil müəssisələri və bu kimi digər qurumlar yer alır.

Belə ki, Avropa Hüquq İnstitutu ilə əməkdaşlıq çərçivəsində cari ilin 22–24 sentyabr tarixlərində Mərkəzin İcraçı direktoru və Xüsusi hüququn ekspertizası şöbəsinin müdiri Avstriyanın paytaxtı Vyana şəhərində keçirilən Avropa Hüquq İnstitutunun İllik Konfransında iştirak edib. Avropanın və dünyanın müxtəlif ölkələrindən qabaqcıl hüquq mütəxəssislərinin bir araya gəldiyi tədbirin 2025-ci il üzrə mövzusu dövrümüzün ən aktual məsələlərindən birinə – ekoloji, iqtisadi, siyasi və texnoloji dəyişikliklər fonunda ətraf mühitin və əsas insan hüquqlarının qorunmasına həsr olunub. Konfrans zamanı məhkəmələrin iqlim və biomüxtəliflik böhranlarında dəyişən rolu, hüquq sistemlərinin ekoloji çağırışlara adaptasiyası mövzularında panel müzakirələr aparılıb. Eyni zamanda Avropa Hüquq İnstitutunun korporativ cinayət məsuliyyəti, rəqəmsal aktivlərin varisliyi və digər layihələr çərçivəsində ədalətli, dayanıqlı və çevik gələcək üçün praktiki

strategiyaların işlənməsi müzakirə edilib. Bununla yanaşı, iştirakçılar arasında hüquqi islahatlar sahəsində təcrübə mübadiləsi həyata keçirilib və gələcək əməkdaşlıqlar üçün mühüm zəmin yaradılıb.

Bundan başqa, Mərkəzin Xüsusi hüququn ekspertizası şöbəsinin əməkdaşı 8-10 iyul tarixlərində Avropa Şurasının dəstəyi ilə Xorvatiyanın paytaxtı Zaqreb şəhərində keçirilən Məlumatların Mühafizəsi Təcrübələri üzrə beynəlxalq təlim proqramında iştirak edib. Sözügedən təlimin proqramı Xorvatiyanın Fərdi Məlumatların Mühafizəsi Agentliyi (AZOP) tərəfindən təşkil olunub. Üç günlük təlim proqramı çərçivəsində Avropa İttifaqının Ümumi Məlumatların Mühafizəsi Qaydası (GDPR), yenilənmiş 108+ saylı Konvensiya, onun icrası və milli qanunvericiliyə inteqrasiyası, eyni zamanda rəqəmsal idarəetmə ilə bağlı hüquqi və praktiki məsələlər müzakirə olunub. Həmçinin əlavə olaraq iştirakçılara Xorvatiyanın inzibati strukturu, məlumatların qorunması sahəsində GDPR-a uyğun olaraq fəaliyyət göstərən və ölkənin bu sahədə müstəqil nəzarət orqanı olan AZOP-un fəaliyyət istiqamətləri, institusional müstəqilliyi, səlahiyyətləri, eləcə də dövlət və özəl sektorlara nəzarət mexanizmləri, qəbul etdiyi qərarlar və tətbiq etdiyi uğurlu təcrübələr barədə ətraflı məlumat verilib. Təlimdə AZOP-un dövlət orqanları ilə əməkdaşlığı, məlumatların qorunması və məxfilik hüququnun ifadə azadlığı və məlumat əldə etmək hüququ ilə balanslaşdırılması kimi aktual mövzular da müzakirə edilib. Proqram çərçivəsində Avropa Şurasının Süni İntellekt üzrə Çərçivə Konvensiyası, Aİ-nin Süni İntellekt Aktı və Milli Süni İntellekt Qanunvericiliyi prosesində AZOP-un rolu barədə də təqdimatlar keçirilib.

Mərkəzin hüquq sahəsində fəaliyyət göstərən əməkdaşları təlimçilik sahəsində peşəkar bilik və bacarıqlarının artırılması məqsədilə cari ilin 8 oktyabr – 12 dekabr tarixlərində “Təlimçilər üçün Təlim” (Training of Trainers – TOT) proqramına cəlb edilmişlər. Təlim zamanı iştirakçılar həm nəzəri bilikləri mənimsəyib, həm də praktik tapşırıqlar, komanda işləri vasitəsilə bu bilikləri tətbiq etmək imkanı qazanıblar. Yekunda iştirakçılar imtahan mərhələsindən keçərək təlim karkasları hazırlayıb və sınaq təlimləri keçərək təlimçilər tərəfindən müxtəlif ballarla qiymətləndirilib. Təlim proqramını uğurla tamamlayan əməkdaşlara American Accreditation Association tərəfindən akkreditasiyadan keçmiş TOT sertifikatları təqdim olunmuşdur.

*Mərkəzin təmsil olunduğu müxtəlif tədbirlər*

Hesabat dövründə Mərkəz tərəfindən yerli və xarici qurumlarla ikitərəfli münasibətlərin və əməkdaşlığın möhkəmləndirilməsi davam etdirilmiş, habelə nizamnamə ilə nəzərdə tutulmuş hüquq və vəzifələrin həyata keçirilməsi istiqamətində bir sıra digər işlər də görülmüşdür.



5 fevral tarixində Mərkəzin İcraçı direktoru Samir Mahmudov və şöbə müdirləri PAŞA Holding və onun törəmə şirkətləri tərəfindən təşkil olunan Azərbaycanda ilk regional “LEGIS Hüquq Forumu”nda iştirak ediblər. Qlobal və yerli spikerlərin çıxışları ilə yadda qalan forum çərçivəsində dövlət-özəl sektor əməkdaşlığının hüquqi aspektləri, arbitraj mexanizmlərinin artan rolu, hüquqi çərçivələrin gücləndirilməsi və texnologiyanın hüquq sahəsinə təsiri kimi aktual mövzuların müzakirəsi aparılıb.



14 may tarixində İcraçı direktor Samir Mahmudov Dövlət İdarəçilik Akademiyasında “Mülki qanunvericiliyin problem məsələləri” mövzusunda keçirilən dəyirmi masada məruzəçi qismində iştirak edib. O, çıxışı zamanı mülki qanunvericilik sahəsində aktual problemlərdən danışıb, Mülki Məcəllənin tətbiqində yaranan çətinliklər, hüquqi boşluqlar və müasir dövrün tələblərinə uyğun normativ dəyişikliklərin zəruriliyi haqqında ətraflı məlumat verib. Eyni zamanda beynəlxalq hüquq təcrübəsində mövcud olan bəzi yanaşmaları müqayisəli şəkildə təqdim edərək milli qanunvericilikdə tətbiq edilə biləcək məqamlarla bağlı fikirlərini bölüşüb.

8 iyul tarixində Mərkəzin Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin müdiri Hüquq və İnsan Haqları İnstitutu tərəfindən keçirilən “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa dair hazırlanmış elmi-praktiki kommentariyanın təqdimatında iştirak edib. Kommentariyanın məzmunu barədə ətraflı məlumat verilərək bildirib ki, nəşr beynəlxalq sənədlər və məhkəmə təcrübəsi əsasında hazırlanıb, həmçinin azadlıqdan məhrumetmə yerlərində insan hüquqlarının müdafiəsi və beynəlxalq standartlara əsaslanması xüsusi diqqət mərkəzində saxlanılıb. Tədbirin sonunda kommentariyada qaldırılan məsələlər ətrafında geniş fikir mübadiləsi və müzakirələr aparılıb.



17 iyul tarixində Mərkəzin İcraçı direktoru Samir Mahmudov Azərbaycan Respublikası Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş "Konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsində müasir tendensiyalar" mövzusunda beynəlxalq konfrans və Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresində iştirak edib. Konfransın praktiki hissəsində müxtəlif ölkələrdən dəvət olunan Konstitusiya məhkəmələrinin sədr və hakimləri Konstitusiyanın aliliyinin təmin edilməsi sahəsində mövcud təcrübələrini bölüşüblər. Eyni zamanda Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransının 6-cı konqresi ilə əlaqədar TÜRK-AY-a üzv məhkəmələrin nümayəndələri tərəfindən milli məruzələr üzrə icmallar təqdim olunub, həmçinin TÜRK-AY-ın beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqamətində fəaliyyəti, bu sahədə əldə olunmuş nailiyyətlər və perspektivlər ətrafında fikir mübadiləsi aparılıb. Konqres çərçivəsində Türk dövlətləri arasında konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edən "Bakı Bəyannaməsi", həmçinin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə Türkiyə Konstitusiya Məhkəməsi, eləcə də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə İraq Federal Ali Məhkəməsi arasında Anlaşma memorandumları imzalanıb.



25 sentyabr tarixində Mərkəzin əməkdaşları Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Ədliyyə Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində ərsəyə gələn, Azərbaycanın hüquqi sənəd və qanunvericilik bazasında effektiv axtarış etməyə imkan verən "E-qanun.ai" platformasının təqdimatında iştirak ediblər. Tədbirdə digər qurumların nümayəndələri, hüquqşünaslar və media nümayəndələri də iştirak ediblər. Təqdimat mərasimində iştirakçılara platformanın yaradılmasının əsas hədəf və məqsədi, onun üstünlüyü, funksionallığı və digər xüsusiyyətləri barədə ətraflı məlumat verilib. Daha sonra iştirakçıların ünvanladığı suallar əsasında platforma sınaqdan keçirilib və onun iş prinsipi izah olunub.

3 oktyabr tarixində Mərkəzin İcraçı direktoru Samir Mahmudov Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin təşkilatçılığı ilə keçirilən II Milli Rəqabət Forumunda iştirak edib. Tədbirdə Milli Məclisin deputatları, dövlət qurumları, biznes assosiasiyaları, özəl sektorun təmsilçiləri və digər maraqlı tərəflər iştirak ediblər. Ölkədə rəqabət sahəsində təkmilləşdirilən qanunvericilik aktları və institusional islahatlar, rəqabətədavamlı iqtisadiyyatın inkişafı, o cümlədən rəqabət problemlərinə dair effektiv tənzimləmə üsulları və hüquqi alətlər ətrafında müzakirələrin aparıldığı forumda mövzu ilə bağlı çıxışlar dinlənilib, panel müzakirələr təşkil olunub. Müzakirələr zamanı rəqabət siyasətinin iqtisadi inkişafda rolu, rəqabət tənzimləmələrinin biznes mühitinə təsirləri, rəqəmsal platformalarda meydana çıxan yeni rəqabət çağırışları, transsərhəd rəqabət pozuntularının qarşısının alınması, eləcə də ötən il qəbul olunmuş Rəqabət Məcəlləsinin bazar iştirakçılarının davranışlarına ilkin təsirləri kimi mühüm məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. “Müasir rəqabət çağırışları və dəyişən siyasət: Rəqabət siyasətinin iqtisadi inkişafda rolu” mövzusunda keçirilən panel müzakirədə iştirak etmiş İcraçı direktor Samir Mahmudov rəqabət pozuntularının aşkarlanması və qarşısının alınması zamanı hüquqi və iqtisadi dəlillərin fərqləndirilməsi, onların əhəmiyyəti və tətbiqi problemləri ilə əlaqədar çıxış edib. Çıxışı zamanı Samir Mahmudov rəqabət pozuntularının müəyyənləşdirilməsində hüquqi və iqtisadi dəlillərin qarşılıqlı əlaqəsinin vacibliyini vurğulayıb, dəlillərin toplanmasında qarşıya çıxan başlıca problem və çətinliklərə diqqət çəkib, sübutların toplanması və qiymətləndirilməsi prosesində beynəlxalq təcrübənin tətbiqi imkanlarına toxunub. Eyni zamanda iqtisadi təhlillərin məhkəmə təcrübəsində düzgün tətbiqinin qərarların obyektivliyinə və bazarda ədalətli rəqabət mühitinin təmin edilməsinə təsirindən bəhs edib.






14 oktyabr tarixində Mərkəzin İcraçı direktorunun müavini Kamalə Paşayeva Bakı Konqres Mərkəzində Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası çərçivəsində “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Məhkəmə hakimiyyəti və

hakimiyyətin digər iki qolu arasında münasibətlər" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edib.

Dünyanın 71 ölkəsindən 300-ə yaxın nümayəndə - hakimlər, vəkillər, hökumət rəsmiləri və beynəlxalq təşkilatların təmsilçiləri, eləcə də tanınmış hüquqşünas-ekspertlərin iştirak etdiyi konfransda çıxış edən rəsmilər hüquqi dövlət quruculuğunda hakimiyyətlərin bölgüsü prinsipinin həyata keçirilməsinin vacibliyi, məhkəmələrin demokratik və hüquqi dövlətlərdə hüquq və azadlıqların, cəmiyyətin təməl dəyərlərinin qoruyucusu olması, bu vəhdətin hakimiyyətin balanslı idarəçiliyinin həyata keçirilməsinə şərait yaratması, həmin strukturun sütunlarından biri kimi məhkəmə hakimiyyətinin oynadığı roldan danışıb. Eyni zamanda texnologiya, süni intellekt və sosial medianın sürətli inkişafının məhkəmələr qarşısında qoyduğu yeni imkanlar, həm də risklərə toxunulub, məhkəmə hakimiyyətinin rolunun əməkdaşlıq və qarşılıqlı anlaşma çərçivəsində fəaliyyət göstərməkdən ibarət olduğu qeyd olunub.

12 noyabr tarixində Mərkəzin İcraçı direktoru Samir Mahmudov, İcraçı direktorun müavini Kamalə Paşayeva və Mərkəzin bəzi əməkdaşları Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəstəyi və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşkilatçılığı ilə "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edib.




Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Mərkəzin Müşahidə Şurasının sədri Gündüz Kərimov konfransda çıxış edərək qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin müstəqilliyi və suverenliyi uğrunda mübarizə apardığı çətin dövrdə qəbul olunub. O vurğulamışdır ki, Qarabağ torpaqları işğal altında olduğu zaman Konstitusiyanın bəzi müddəalarının icrası məhdudiyyətlərlə üzləşsə də, cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində həmin müddəaların hüquqi qüvvəsi dövlətimizin bütün ərazisində bərpa edilib, üçrəngli bayrağımız azad edilmiş torpaqlarda ucaldılıb. Gündüz Kərimov bu əlamətdar hadisəni Konstitusiyaya yeni nəfəs verilməsi kimi dəyərləndirib.



Mərkəzin İcraçı direktoru Samir Mahmudov konfransda “Konstitusion prinsiplər: Qanunun aliliyinə aparan yol” mövzusunun müzakirə olunduğu paneldə çıxış edib. Samir Mahmudov çıxışında qanunvericilikdə aydınlıq prinsipinin layihələrin hazırlanmasında xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O qeyd edib ki, normayaratma texnikalarının kifayət qədər detallı olmaması keyfiyyətli qanun layihələrinin hazırlanmasını çətinləşdirir. İcraçı direktor Mərkəzin bu günədək müxtəlif qanun layihələrinin ekspertizasını həyata keçirərək rəylərin aidiyyəti orqanlara göndərildiyini bildirib. Həmçinin qeyd olunub ki, Mərkəz tərəfindən dövlət qulluqçuları üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində bu günə qədər 17 təlim təşkil edilib və bu təlimlərdə 250-dən çox dövlət qulluqçusu iştirak edib.

Konfransda Mərkəzin dəvəti ilə iştirak edən Avropa Hüquq İnstitutunun prezidenti Teresa Rodriguez de las Heras Ballell çıxış edərək gələcək üçün hüquqi bazanın formalaşdırılması zamanı hibrid cəmiyyətlərin inkişaf perspektivlərinin nəzərə alınmasının vacibliyini vurğulayıb. O bildirib ki: “Gələcəyin cəmiyyətlərində insanlar və süni intellekt birgə fəaliyyət göstərəcəklər. Buna görə də hibrid cəmiyyətlər demokratiya, qanunun aliliyi və insan hüquqları prinsiplərinə əsaslanmalıdır.” Konfransda həmçinin Mərkəzin yeni nəşrləri olan “Normayaratma” kitabı və “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun elmi-praktiki Kommentariyası konfrans iştirakçılarına nümayiş etdirilmişdir.




10 dekabr tarixində Mərkəz ilə Hüquq və İnsan Haqları İnstitutu tərəfindən Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş “Konstitusiya və insan hüquqları” mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə Mərkəz və İnstitut tərəfindən hazırlanmış dörd yeni nəşr auditoriyaya təqdim olunub. Tədbirin həm elmi-hüquqi müzakirələrin aparılması, həm də yeni nəşrlərin ictimaiyyətə təqdim olunması baxımından əhəmiyyətini qeyd edən Mərkəzin İcraçı direktoru Samir Mahmudov Mərkəz tərəfindən hazırlanan “Normayaratma” vəsaiti və “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası

Qanununun elmi-praktiki Kommentariyası barədə məlumat vermişdir. Bu nəşrlərin hüquqi tənzimləmələrin təkmilləşdirilməsi, normayaratma fəaliyyətinin daha sistemli və səmərəli şəkildə həyata keçirilməsi baxımından mühüm vəsait olduğu vurğulanmışdır. İnstitutun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə “Konstitusiya və Suverenlik İli” çərçivəsində görülən işlərdən danışmış, hazırlanmış nəşrlərin qanunlarımızın daha yaxşı başa düşülməsi, hüquqi düşüncənin inkişafı və insan hüquqlarının müdafiəsi baxımından olduqca önəmli olduğunu qeyd etmişdir.




13 dekabr tarixində Mərkəzin İcraçı direktorunun müavini Kamalə Paşayeva Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA), Azərbaycan Respublikası Vəkillər Kollegiyasının tərəfdaşlığı və ELSA Azərbaycanın təşkilatçılığı ilə baş tutan “Zəfərin Qanunu” layihəsinin panel müzakirəsində spiker qismində iştirak etmişdir. Azərbaycan Respublikasının Konstitusiyasına, Konstitusiya quruluşu və quruculuğuna həsr olunan müzakirədə Kamalə Paşayeva “Azərbaycan Respublikasında Konstitusionalizm Tarixi: Heydər Əliyevin Konstitusiya Quruculuğu Modeli” mövzusunda çıxış edərək Azərbaycan konstitusionalizminin tarixi inkişaf yolu, Ümummilli lider Heydər Əliyevin bu sahədəki müstəsna rolu və müasir Azərbaycan dövlətçiliyinin hüquqi əsaslarının formalaşmasında Konstitusiyanın roluna diqqət çəkmişdir. Çıxış zamanı gənclərə konstitusiya dəyərlərinin mahiyyəti, hüquqi dövlət anlayışı və Ümummilli lider Heydər Əliyevin konstitusiya quruculuğunda müəyyən etdiyi strateji yanaşmalar barədə ətraflı məlumat verilib.

Bununla yanaşı hesabat dövrü ərzində Mərkəzin əməkdaşları Milli Məclis, Ali Məhkəmə, Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunmuş digər tədbirlərdə iştirak etmişdirlər.

*<u>Mərkəzə daxil olmuş müraciətlər üzrə</u>*

Son olaraq qeyd edilməlidir ki, hesabat dövründə mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, digər qurumlardan və vətəndaşlardan Mərkəzə ümumilikdə 353 sənəd daxil olmuş, müvafiq müraciətlər qanunvericiliyə uyğun olaraq cavablandırılmışdır.

**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi**